# ƏHƏMIYYƏTLİ UÇOT SIYASƏTI VƏ IZAHLI QEYDLƏR

## 1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2016-ci ildə tamamlanan il üzrə "Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları"na uyğun olaraq Böyük Quruluş Partiyası (irəlidə Partiya adlanacaq) üçün tərtib edilmişdir.

## 2. Partiya haqqında ümumi məlumat

Böyük Quruluş Partiyası Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 12 avqust 2005-ci tarixlində 43 saylı Şəhadətnamə ilə qeydiyyata alınıb.
Mülkiyyət növü-xüsusi.
Qanuni təmsilçisi -(Başqan) Mustafa Fazil Qəzənfər oğlu.
Partiyaya Bakı şəhəri Vergilər Departamenti tərəfindən 1400660501 VÖEN şəhadətnamə verilib.
BQP-nin əsas məqsədi demokratik dəyərlərə söykənən müasir bir cəmiyyət, sivil qurumlar tərəfindən yönəldilən, insan azadlığının və mülkiyyət toxunulmazlığının ən ali prinsiplər kimi qorunduğu, milli iradənin hegemon olduğu bir Azərbaycan dövləti qurmaqdır. Hesabat dövrü ərzində işçilərin orta sayı 7 nəfər olub.

## 3. Partiyanın hüquqi ünvanı

Hüquqi ünvan - Bakı şəhəri, Nəsimi rayonu, Ş.Əzizbəyov küçəsi 170
Faktiki ünvan - Bakı şəhəri, Nizami rayonu, Əzim Əzimzadə küçəsi 4

## 4. Əməliyyat valyutası

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) ilə ifadə olunmuşdur.

## 5. Uçot siyasətinin təqdimatı

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

## 6. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

Partiya mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmışır. Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Maliyyə hesabatları hazırlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla aktivlər ilkin dəyər uçot prinsipinə əsaslanmışdır.

## 7. Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər)

Torpaq, tikili və avadanlıqlar elə aktivlərdir ki, - inzibati məqsədlər və təchizatında istismar edilir və ya gələcəkdə icarəyə verilmək məqsədlər üçün istifadə edilir; - Bir dövrdən (12 aydan)

artıq dövr ərzində istifadə edilməsi gözlənilir. Bu uzunmüddətli aktivlər əldə edilərkən ödənilən dəyər əsasında tanınır.

## 8. Amortizasiya

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır. Bütün digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir: - Binalar və qurğular - 20 il və ya illik 7%-dək - Maşın avadanlıq - 5 il və ya illik 25%-dək - Nəqliyyat vasitələri - 5 il və ya illik 25%-dək - Sair əsas vəsaitlər - 5 il və ya illik 20% -dək(ötürücü qurğular) Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir. Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda əks etdirilir.

## 9. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir.

## 10. Kreditlər bə borclar

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Kreditlər və borclar Partiya tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması hallan istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

## 11. Gəlirin tanınması

Gəlir aktivlərin artması və öhdəliklərin azalması ilə bağlı iqtisadi səmərənin artımının baş verdiyi və bu artımın etibarlı səviyyədə qiymətləndirilməsi mümkün olduğu hallarda və gəlir tanınma meyarına uyğun olaraq tanındıqdan və qiymətləndirildikdən sonra uçota alınmaqla, təşkilatın maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda əks etdirilir. Əsas əməliyyat gəliri dövlət büdcəsindən ayrılan vəsaitlər, digər alınmış yardımlaran ibarət olduğundan vergiyə cəlb olunmamışdır. Digər vergiyə çəlb olunan gəlirlər isə hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır. Əsas əməliyyat gəliri bütün vergilər çıxıldıqdan sonra qalan gəlirdir.

## 12. Xərclərin tanınması

Partiyada xərçlər lahiyələr (tərtib olunan büdcələr) əsasında alınan və lahiyə (büdcə) çərçivəsində layihələrin büdçələri əsasında ödənilən zamanı tanınaçaqdır. Yəni layihələrdən

vəsaitlər daxil ola bilər, amma layihə icra olunmasa həmin alınan vəsaitlər xərç kimi tanına bilməz.

## 13. Torpaq, tikili və avadanlıqlar

| Məzmun | Avadanlıq | | Cəmi |
|---|---|---|---|
| 01 yanvar 2015-ci il tarixinə ilkin dəyər | 6629 | | 6629 |
| Yığılmış amortizasiya | | | |
| **01 yanvar 2015-ci il tarixinə balans dəyəri** | **6629** | | **6629** |
| Daxilolmalar | | | |
| Xaricolmalar | | | |
| Amortizasiya ayırmaları | 1839.40 | | 1839.40 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | |
| 31 dekabr 2015-ci il tarixinə ilkin dəyər | 4789.60 | | 4789.60 |
| Yığılmış amortizasiya | 1839.40 | | 1839.40 |
| **31 dekabr 2015-ci il tarixinə balans dəyəri** | **4789.60** | | **4789.60** |
| **01 yanvar 2016-ci il tarixinə ilkin dəyər** | 4789.60 | | 4789.60 |
| Yığılmış amortizasiya | | | |
| 01 yanvar 2016-ci il tarixinə balans dəyəri | 4789.60 | | 4789.60 |
| Daxilolmalar | | | |
| Xaricolmalar | | | |
| Amortizasiya ayırmaları | 735 | | 735 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | |
| **31 dekabr 2015-ci il tarixinə ilkin dəyər** | 6629 | | 6629 |
| Yığılmış amortizasiya | 2574.40 | | 2574.40 |
| **31 dekabr 2016-ci il tarixinə balans dəyəri** | **4054.60** | | **4054.60** |

## 14. Pul vəsaitləri və ekvivalentləri

| Göstəricilər | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| Kassada nağd pul vəsaitləri | 0.00 | 39.92 |
| Milli valyutada bank hesabı | 2.85 | |
| YEKUNU | 2.85 | 39.92 |

## 15. Sair qısamüddətli aktivlər

| Göstəricilər | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| Vergi aktivi (vergilər üzrə artıq ödəmə) | | |
| YEKUNU | | |

## 16. Ehtiyat Fondu

| Göstəricilər | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| Əsas vəsaitlərin daxilolmasından yaranan əlavə kapital | | |
| YEKUNU | | |

## 17. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)

| Göstəricilər | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| Əvvəlki hesabat dövrünün mənfəəti | | |
| Cari hesabat dövrünün mənfəəti | | |
| **YEKUNU** | | |

18. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər

| Göstəricilər | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| Sosial sığorta haqqı üzrə öhdəliklər | | |
| **YEKUNU** | | |

19. Gəlirlər

| Göstəricilər | 2016 | 2015 |
|---|---|---|
| Dövlət büdcəsindən (Maliyyə Nazirliyi) daxil olan vəsaitlər | 98214.29 | 106638.52 |
| Üzvlük haqlarından daxil oln vəsait | 391 | 5 |
| YEKUNU | 98605.29 | 106833.52 |

| Vəsaitin daxil olduğu tarix | Vəsaiti ödəyən qurum | Daxil olan vəsaitin məbləği |
|---|---|---|
| 01.02.2015 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 24553.57 |
| 07.04.2015 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 24553.57 |
| 12.07.2015 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 24553.58 |
| 29.09.2015 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 24553.57 |
| | **CƏMİ** | 98214.29 |

20. Xərclər

| Göstəricilər | 2016 | 2015 |
|---|---|---|
| **1. Cari xərclər** | 3000 | 39846.18 |
| **2. Siyasi partiyaların saxlanmasına və informasiya təminatına çəkilən xərclər** | 31403.07 | 234.80 |
| Əmək haqqı | 15353.92 | |
| Sosial sığorta ayırmaları 22% , | 3638.50 | |
| Sosial sığorta ayırmaları 3 % | 495.78 | |
| Vergi ödənişi | 688.78 | |
| İcarə haqqı | 680.00 | |
| İnformasiya və internet xərcləri | 457.50 | |
| Rabitə xərcləri (o cümlədən mobil rabitə üçün) | 914.40 | |
| Elektrik enerjisi xərcləri | 47.01 | |
| Dəftərxana xərcləri (mərkəzi və yerli təşkilatlar üçün) | 913.70 | |
| Bank xidməti xərcləri | 488.65 | |
| Kompyüterlərin katriclərnin dəyişdirlməsi | 406.13 | |
| Audit xidməti | 500.00 | |
| ASAN xidmətə ödəniş | 33.20 | |
| Dövrü nəşrlərin alınması xərcləri | 123 | |
| Təsərrüfat xərcləri | 4342.50 | |
| Partiya üzvü qadınlar üçün bayram hədiyyəsi | 2320 | |

| Göstəricilər | 2016 | 2015 |
|---|---|---|
| **3. İctimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər** | 14551,00 | 11630 |
| Ali Məclisin iclasları, ümumi yığıncaqlar, ümümrespublika müşavirələri və kütləvi tədbirlər üçün xərclər | 4630 | |
| Qurultay xərcləri | 2270 | |
| Kitab çapı (təbliğati mətbu nəşrlər) | 826 | |
| Seçkiqabağı təbliğat və təşviqat üçün | | |
| Notarius rüsumu | | |
| Tarixi günlər, bayamlar və yubileylərin qeyd edilməsi xərcləri | 2750 | |
| Əklillər üçün xərclər | 850 | |
| vətəndaşlar arasında siyasi maarifləndirmə işi aparılması xərcləri | 3225 | |
| **4. Yerli təşkilatlara edilən yardımlar** | **12.500** | **19036.50** |
| **5. Fərdi xərclər** | 18900 | 39590 |
| Ezamiyyə xərcləri | 18900 | |
| **6. Sair xərclər** | 18295.62 | 680 |
| Avtonəqliyyat xərcləri (yanacaq, ehtiyat hissələri) | 12600 | |
| Təmir xərcləri | 1469.62 | |
| Müraciət edən üzvlərə maddi yardım | 4226 | |
| **YEKUNU** | 98649.69 | 111017.48 |

*Hesabat dövrü ərzində Amortizasiyaya çkilən xərcin məbləği 735 manat olmuşdur.*

**21. Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altmda olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasma deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 22. Risklərin idarə edilməsi

Partiya daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd. bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

## 23. Kredit riski

Partiyanın kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Partiyanın pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

## 25. Bazar riski

Partiya bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin

baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borclarm bazar dəyəri onların daşman dəyərlərilə dəyişə bilər.

**26. Faiz dərəcəsi riski**

Partiyanın bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**27. Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcək hadisələr baş verməmişdir.

**Partiyanın başqanı**

**Partiyanın baş muhasibi**